UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.3.197

NİGAR ƏSƏDOVA

# MUSA MİRZƏYEVİN VİOLİN VƏ FORTEPİANO ÜÇÜN "ADAJİO" VƏ "VALS-SKERTSO" ƏSƏRLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

*Təqdim olunmuş məqalədə Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti Musa Mirzəyevin "Adajio" və "Vals-skertso" əsərlərinin xüsusiyyətləri nəzəri baxımdan təhlil edir və ifaçılıq xüsusiyyətlərinə aydınlıq gətirilir. Məqalənin əsas məqsədi müasir dövrdə də violin ifaçılarının yaradıcılığında əsas yer tutan bu əsərlərin melodik dilinin zənginliyini işıqlandırmaqdan və ifaçılıq üsullarının müxtəlifliyini göstərməkdən ibarətdir. Bu baxımdan məqalənin elmi yeniliyini Musa Mirzəyevin "Adajio" və "Vals-skertso" əsərlərinin ətraflı şəkildə təhlil olunması və səciyyəvi xüsusiyyətlərinin aşkar edilməsi təşkil edir.*

***Açar sözlər:*** *Musa Mirzəyev, bəstəkar, violin, fortepiano, ifaçılıq xüsusiyyətləri, janr*

## Giriş

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti Musa Mirzəyev milli musiqi mədəniyyətimizdə bir çox maraqlı və janr müxtəlifliyi ilə seçilən əsərlərin müəllifi kimi öz dəst-xəttini qoruyub saxlamışdır. Dahi müəllimi Qara Qarayev məktəbinin layiqli davamçısı olan Musa Mirzəyev işıqlı dünyagörüşü və səmimiyyəti, bədii ifadəliliyi və lirik emosionallığı ilə seçilən əsərlərində mövzu rəngarəngliyi yaratmaqla, yaradıcılığının özünəməxsus tərəflərini açmağa nail olmuşdur.

## Əsas təhlil

M.Mirzəyevin yaradıcılığının əhəmiyyətli hissəsini onun violin aləti üçün yazılmış əsərləri təşkil edir. Bəstəkarın violin üçün yazdığı pedaqoji və konsert nümunələri violin ifaçılarının repertuarına daxil olaraq, bu sahəni daha da zənginləşdirmişdir. Xüsusilə, 1960-cı illərdə M.Mirzəyevin violin üçün yazdığı əsərlərə marağı daha da artır və o, bir-birindən maraqlı janr nümunələrini ərsəyə gətirir. Qeyd edək ki, 1960-cı illər M.Mirzəyevin yaradıcılığının geniş vüsət alması dövrünə təsadüf edir və bu dövrdə yazdığı əsərlərdə coşğunluq hissləri özünü büruzə verir.

Şübhəsiz ki, bəstəkarın yaradıcılığının müxtəlif istiqamətlər üzrə genişlənməsi onun violin üçün yazılmış əsərlərinə də öz təsirini göstərərək, onların mövzu və obrazlar aləmi, melodik və hamonik dilin xüsusiyyətləri, ifaçılıq xüsusiyyətləri baxımından da zənginləşməsində mühüm rol oynamışdır. Əsərlərinin uğuru M.Mirzəyevi yeni sənət uğurlarına doğru yönəldir və dərin məzmunlu əsərlərin yaranması üçün yeni yollar açırdı.

Məlumdur ki, M.Mirzəyev bir bəstəkar kimi alətlərin tembr xüsusiyyətlərinə dərindən bələd olub, ifaçılıq üsullarının müxtəlifliyini müəllifi olduğu əsərlərdə dərindən açmağa malikdir. Onun yazdığı hər bir əsər istər dinləyicidə, istərsə də ifaçıda maraq oyadır və yazılan əsərlərin ruhlandırıcı xarakterini müəyyən etməyə istiqamətlənmişdir.

M.Mirzəyevin kamera-instrumental əsərləri onun yaradıcılığının mühüm bir hissəsini təşkil edir. Qeyd edək ki, bəstəkar bu sahəyə yaradıcılığının erkən dövründən başlayaraq, müraciət etmiş və bu sahə daim onun diqqət mərkəzində olmuşdur. Kamera musiqisi sahəsi M.Mirzəyev üçün yaradıcı axtarışlar və tapıntılar dövrü kimi əhəmiyyətə malikdir. Bəstəkarın yaradıcılığında aparıcı mövqe tutan lirik obrazlılığın ilk təcəssümü məhz kamera əsərləri ilə bağlı olmuşdur. M.Mirzəyev ən müxtəlif hiss və duyğularını, yaşantılarını dinləyicilərə məhz kamera əsərləri vasitəsilə çatdırmış

və bu sahədə həssas bir bəstəkar kimi çıxış etmişdir. M.Mirzəyevin yaratdığı kamera musiqisi nümunələri arasında ansambl əsərləri ilə yanaşı, violin və fortepiano üçün yazılmış janr nümunələri də əsas yer tutur. Bəstəkarın violin və fortepiano üçün yazılmış əsərləri onun romantik ruhunu daha da aydın ifadə edərək, poetikləşdirilmiş janr nümunələri kimi təəssüratını ifadə edir. Bu əsərlər arasında müxtəlif janrlılığın özünü göstərməsi isə bəstəkarın kamera-instrumental musiqi sahəsində olan marağının ifadəsi kimi əhəmiyyətlidir. Qeyd olunmalıdır ki, M.Mirzəyevin kamera əsərlərinin ifa taleyi hər zaman uğurlu olmuş və ifaçıların repertuarında özünəməxsus yer tutmuşdur. Digər tərəfdən isə, M.Mirzəyevin digər janr sahələrində olduğu kimi, kamera əsərlərinin də əksər hissəsi nəşr edildiyi üçün onların müxtəlif ifaçılar tərəfindən ifası üçün geniş imkanlar açılmışdır.

M.Mirzəyevin 1961-ci ildə violin və fortepiano üçün yazdığı "Adajio" və "Vals-skertso" nəinki ölkəmizdə, hətta onun hüdudlarından kənarda da tanınmış və ifaçıların repertuarında layiqli yer tutmuşdur. M.Mirzəyevin violin üçün yazdığı əsərlər sırasında özünəməxsus yer tutan "Adajio" və "Vals-skertso" musiqi dilinin zənginliyinə və ifaçılıq üsullarının dolğunluğu baxımından xüsusi əhəmiyyətə malikdir. Bəstəkarın bir çox əsərləri kimi bunlar da əsasən nüfuzlu konsert proqramlarına daxil edilmiş və dinləyicilər tərəfindən rəğbətlə qarşılanmışdır. "Adajio" və "Vals-skertso" ifaçının öz bacarıqlarını, alətin ifa imkanlarını və əsərin obraz-emosional məzmununu duyaraq üzə çıxarmasını özündə əks etdirir.

"Vals-skertso" 2002-ci Azərbaycan və Türkiyə arasında diplomatik münasibətlərin və dərin əlaqələrin yaradılması münasibətilə təşkil olunmuş konsertdə ifa olunmuşdur. Həmin tədbir Dövlət Mahnı Teatrında keçirilmiş və proqrama M.Mirzəyevin "Vals-skertso" əsəri də daxil edilmişdir. Konsertdə "Vals-skertso" tanınmış ifaçılar, Beynəlxalq müsabiqələr laureatı Lalə Musayeva (f-no) və Cəmilə Musayeva (violin) tərəfindən ifa olunmuşdur.

"Adajio" və "Vals-skertso" bəstəkarın yaradıcılığının erkən dövründə yazılmasına baxmayaraq, milli kamera-instrumental musiqi sahəsində ən gözəl əsərlərdən hesab edilir və hələ də öz təravətini itirməmişdir.

"Adajio" isə M.Mirzəyevin erkən əsərlərindən olub, bəstəkarın formalaşan dəst-xəttinin xüsusiyyətlərini özündə əks etdirir. Bu əsər bəstəkarın yaradıcılığında kamera-instrumental musiqinin mənimsənilməsi istiqamətində əhəmiyyət kəsb edən əsərlərdən biri hesab edilə bilər.

Violin və fortepiano üçün "Adajio" kiçik həcmli olmasına baxmayaraq, özündə poema xüsusiyyətlərini daşıyır. Belə ki, janrın lirikləşməsi, bəstəkarın romantik üslubu yaradıcılığının ilk dövrlərindən başlayaraq əsərlərində vurğulaması güclü emosionallıq yaradaraq, ekspressiv ifadəliliyinin yaradılmasına səbəb olur.

Violin və fortepiano üçün "Adajio" ilə "Vals-skertso" məcmuə şəklində 1963-cü ildə nəşr edilmişdir. Həmin redaksiyada belə bir qeyd verilmişdir: *"Hər iki pyesin bir yerdə ifası məsləhətdir, lakin pyeslərin ayrı-ayrı ifası da mümkündür"* [5, s.5]. Buna baxmayaraq, artıq hər iki əsər - "Adajio" ilə "Vals-skertso", uzun illərdir ki, ifaçıların repertuarında istəkdən asılı olaraq, müstəqil şəkildə ifa olunur.

Həcm baxımından yığcam olmasına baxmayaraq, "Adajio" əsərində emosional obrazlar aləmi öz təcəssümünü tapmış və məna dərinliyi violin aləti vasitəsilə ifadə olunmuşdur. Əsər ağır və təmkinli xarakterə malik olub, hüznlü lirikanın aydın təcəssümünü yaradır. Pyesin adı onun temp göstəricilərini ifadə edərək, əsərin xarakteri haqqında fikirləri formalaşdırır. Bu baxımdan "Adajio" adlanan pyesin melodik dilinin inkişafı bədii obrazlılığın inkişaf istiqamətlərindən yaranır. Belə ki, bəstəkarın əsərdə güclü emosional hisslərdən uzaq olub, sakit və təmkinli xarakteri yaratması, klassik kamilləşməyə doğru irəliləməsi müəllifin gənclik dövründə olmasına baxmayaraq, dərin düşüncələrini ifadə edir. Əsərdə estetiklik və kamillik, lirika və ağır emosional təsir bir arada birləşərək, fortepiano və violin aləti arasında dərin bağları yaradır.

Əsərin 4/4 ölçüdə, “Adajio” tempində yazılması təmkinli obraz-emosional məzmunun formalaşmasına və bundan irəli gələrək, musiqi dilinin formalaşmasına öz təsirini göstərmişdir. Belə ki, bəstəkar yaratdığı əsərdə ənənəvi forma-quruluş xüsusiyyətlərini saxlamaqla, əsərin melodik və harmonik dilini də buna uyğunlaşdırmağa nail olmuşdur.

Əsərin forma-quruluş xüsusiyyətləri ənənəvi yanaşmadan kənara çıxmır və bəstəkarın müəyyən olunmuş meyarlar üzrə keçməsini ifadə edir. “Adajio” sadə üçhissəli formada yazılıb və klassik quruluşun bütün qanunauyğunluqları burada təcəssümünü tapmışdır. Belə ki, üçhissəli formanın bölmələri arasında olan bağlılıq əsər boyu gözlənilmiş və bəstəkar musiqi dilində olan intonasiya yaxınlığını bütövlük yaradan əlamət kimi göstərmişdir. “Adajio” əsərinin ağır xarakteri sanki musiqi dilinə hopmuş və harmonik dilin zənginliyini də öz inkişaf dinamikasına tabe etməyə nail olmuşdur.

Fortepianonun ifasında bir xanəlik giriş ilə başlayan əsərdə əsas üstünlük violin partiyasına verilmişdir. Fortepianonun vəzifəsi isə müşayiət funksiyasını yerinə yetirməkdən ibarət olub, violin partiyasının ifaçılıq üsullarını daha da zənginləşdirir. Violin partiyasının xanənin güclü hissəsində deyil, zəif təqtisindən başlaması əsərin obraz-emosional məzmunu ilə əlaqədardır. Kədərli və təmkinli melodik xətt əsərin musiqi materialının əsas istiqamətini təşkil edir.

Nümunə 1. M.Mirzəyev “Adajio”.




Əsas tonallıq h-moll kimi müəyyən olunsa da, burada milli məqamların xüsusiyyətləri özünü göstərir. Bu yanaşma M.Mirzəyevin milli məqam əsasına bələd olması, eləcə də janrından və alətin tembrindən asılı olmadan müraciət etdiyi bütün əsərlərdə saxlaması ilə bağlıdır.

Üçhissəli formanın birinci hissəsi geniş həcmli olub, iki inkişaf dalğası üzərində qurulmuşdur və fortepianonun ifasında giriş ilə başlanır. Belə ki, girişin yeddi xanədən ibarət olan birinci cümləsində əsas diqqət violin partiyasının ifadə olunmasına yönəldilmişdir. Bu zaman melodik xəttin inkişafı üçün vacib olan dramatiklik çox kəskin şəkildə verilmədən violin partiyasında melodik inkişafın xüsusiyyətlərini saxlayır. Obraz-emosionallığı daha dərindən ifadə etmək məqsədilə mövzunun dəyişilmiş şəkildə ikinci keçidindən əvvəl isə *poco ritenuto* göstərilməklə, sanki əsərin başlanğıc intonasiyalarına ağırlıq gətirilir. Mövzunun davamının *a tempo* ilə ikinci dəfə başlanması zamanı isə musiqi inkişafı geniş nəfəslilik əldə edərək, ritmik fiqurasiyalaın dinamikliyi ilə müşahidə olunur. Mövzunun yeni inkişaf dalğasının yaranması zamanı fortepiano partiyasında canlanma özünü göstərir və onun müşayiət funksiyasını yerinə yetirməsi violin aləti ilə qarşılıqlı əlaqədə verilir. Violin partiyasının əsərdə aparıcı əhəmiyyət kəsb etməsi fonunda fortepianonun ifaçılıq xüsusiyyətlərinin ümumi səslənmədə aparıcı rol oynaması “Adajio”nun obraz-emosional məzmununa dolğunluq bəxş edir. Bu hissənin həcmcə geniş olması sanki hər iki alətin, xüsusilə də violinin səs xüsusiyyətlərinin daha qabarıq göstərilməsinə imkan yaradır. Birinci hissənin ikinci cümləsinin inkişaf dalğası əsərdə baş verə biləcək bütün imkanların və bədii obrazlılığın əsas ifadəsinin violin partiyasına yönəldilməsi ilə bağlıdır. İkinci cümlədə isə harmonik dilin zənginliyi melodik xətti dolğunlaşdıraraq, əvvəldə olan gərginliyi aradan qaldırır və əsərin sanki yenilənməsi ilə müşahidə olunan xüsusiyyətləri ifadə edir. Triollar üzərində qurulan

səslənmə ağır xarakterdə səslənən violin partiyasına müəyyən hərəkətlik gətirərək, eyni zamanda fortepiano partiyasında da canlanmanın yaranmasına səbəb olur.

Üçhissəli formanın ikinci hissəsi ("Piu mosso") "Adajio"nun xarakterinə tamamilə fərqlilik gətirir. Bu dəyişiklik ilk növbədə, violin və fortepiano partiyasının faktura xüsusiyyətlərinin dəyişməsində özünü göstərir. Belə ki, üçhissəli formanın ikinci hissəsində violin partiyasının sıçrayışlı intonasiyalarla başlaması belə təəssürat yaradır ki, sanki əsərdə ifadə fərqliliyi özünü göstərə bilər. Lakin bu hal qısa müddət davam edir və əsasən daha hüznlü musiqinin əvəzlənməsinə gətirib çıxarır. Arpeciolar üzərində qurulmuş fortepiano partiyasının davamlı eyni ritmik fiqurasiyalar üzərində səslənməsi əsərin ifasını tembr baxımdan zənginləşdirməyə doğru yönəldilmişdir. Burada özünü göstərən vacib yanaşma triollar üzərində qurulmuş melodik xəttin inkişafı zamanı melodik xəttdə obraz-emosional məzmunun aydın şəkildə ifadə olunması ilə bağlıdır. Maraqlı bir haldır ki, bəstəkar violin alətinin ifaçılıq xüsusiyyətlərini qəfildən deyil, sanki tədricən hazırlayaraq, onun ifaçılıq üsullarının müxtəlifliyini göstərməyə üstünlük vermişdir. Sekvensiyavari hərəkətin olması violin partiyasının əsas göstəricisi olmaqla yanaşı, əsərin ifasında dinamikliyin gətirilməsinə imkan yaradır. Əsərin birinci hissəsində violin və fortepiano alətləri arasında qarşılıqlı münasibətlərin yüksək səviyyəyə çatması müşahidə olunur. Bəstəkar violin partiyasına xas olan melodik xətti sanki fortepianonun ifa tembrləri ilə dolğunlaşdırmağa üstünlük verir. Bu da öz növbəsində əsərdə olan dramatizmi daha da dərinləşdirməklə yanaşı, ifaçılıq üsullarının da müxtəlifliyini daha aydın nəzərə çatdırmağa imkan verir. Ümumiyyətlə, bəstəkar bu hissədə ənənəvi mövqedən çıxış edərək, üçhissəli formanın bölmələri arasında bağlılığı violin və fortepiano aləti arasında əlaqə yaratmaqla həll etməyə çalışır. Bu səbəbdən də fortepianoda verilən dərin məzmunlu akkordlar əsərin obraz-emosional məzmununun daha aydın ifadə olunmasına yönəldilmişdir.

Nümunə 2. M.Mirzəyev "Adajio" orta hissə




Üçhissəli formanın ikinci hissəsində violin və fortepiano partiyasında bağlılıqdan daha çox, ifadə sərbəstliyi özünü göstərir. Bəstəkar sanki bu hissəni hər iki alətin öz tembr xüsusiyyətlərini ifadə etməsi üçün səsləndirir. Xüsusilə, violin alətinin melodiyanın daxilində baş verən hüznü ifadə etməsi onun musiqi materialında daha aydın şəkildə öz əksini tapır. Bu mənada melodik inkişafın əvvəlcə aşağı səslərdə, daha sonra isə bir oktava yuxarıda səslənməsi melodik xətti gərginləşdirərək, ona hüznlü ab-havadan yaranan emosionallıq bəxş edir. Orta hissədə fortepiano partiyası əsasən ostinat funksiyasını yerinə yetirir və arpecio səslənmələri isə violin partiyasının melodik xəttində həzin ifadəlilik yaradır. Dinamik işarələrin ahəngi bu ifadəliliyi getdikcə artıraraq, violin ilə fortepiano arasında olan bağlılığı yenidən bərpa edir. Fortepianonun qlissandoları fonunda violin partiyasında eyni melodik materialın dəfələrlə dəyişilərək səslənməsi sanki əsərin bədii obrazlılığının təsdiqlənməsi əhəmiyyəti daşıyır. Bu zaman istifadə olunan *poco diminuendo* və *poco ritenuto* ahəngləri pyesin orta hissəsinin obraz-emosional məzmununu tamamlayaraq, üçhissəli formanın üçüncü hissəsinə doğru irəliləyir.

Üçhissəli formanın üçüncü hissəsi birincinin melodik materialının yığcamlaşdırılmış və müəyyən dəyişikliklərlə verilməsi əsasında qurulmuşdur. "Adajio"nun başlanğıcda verilən obrazlar aləmi əsərin sonunda bir daha təsdiqlənərək, əsərin tamamlanması funksiyasını yerinə yetirir. Maraqlı bir yanaşmadır ki, bəstəkar əsəri çərçivəyə alaraq, hissələr arasında bağlılıq yaratmaqla, sanki əsərin bədii obrazlılığını aydın şəkildə ifadə etməyə çalışmış və dərin məzmunluğa üstünlük vermişdir. Bununla bəstəkar əsərin bədii obrazlılığının tamlığını və melodik motivin dəyişilmiş intonasiya xüsusiyyətlərini göstərməyə çalışmışdır. Buna görə də əsərin bir xanədən ibarət giriş ilə başlaması və iki xanədən kiçik melodik motivlə tamamlanması M.Mirzəyevin ənənəvi formanın xüsusiyyətlərinə riayət etməsi ilə bağlıdır. Xüsusilə, əsərin son xanələrində fortepiano və violin partiyası arasında olan bağlılıq daha qabarıq şəkildə özünü göstərir və yuxarı registrlərə doğru yüksəlmə əsərin dramatik ruhunu daha da dərinləşdirir.

"Vals-skertso" M.Mirzəyevin kamera yaradıcılığında ən çox müraciət olunan əsərlərdəndir və əksər ifaçıların repertuarına daxildir. Özündə iki janrın – vals və skertsonun əlamətlərini birləşdirən bu əsərdə bəstəkarın pafoslu və təntənəli melodik dilə üstünlük verməsi müşahidə olunur. Əsərin harmonik dilinin də xüsusiyyətləri öz başlanğıcını əsərin janr əlamətləri ilə bağlamışdır. Ruh yüksəkliyi və coşğun təntənəlik yaradan əsərdə bəstəkarın dövrün musiqi tələblərinə uyğunlaşması xüsusilə diqqəti cəlb edir. Maraqlı bir yanaşmadır ki, bəstəkar hüznlü xarakterə malik olan "Adajio"dan sonra "Vals-skertso" əsərini vermiş və hətta bunları əvvəldə göstərdiyi kimi, fasiləsiz şəkildə ifa etməyi tövsiyə etmişdir. Bəstəkarın bu yanaşması rəmzi məna daşıyaraq, iki əsər arasında davam edən bədii obrazlılığı yaratmışdır. Belə ki, hüznlü və dramatik xarakterə malik olan "Adajio"nun daha sonra şən və fəal obrazlılığı ifadə edən "Vals-skertso" ilə əvəzlənməsi gələcəyə olan xoş inamı və ümid dolu sevincin göstəricisidir. Bu baxımdan bəstəkarın xarakter etibarilə yaxın olan iki janrı birləşdirməsi əsərin bədii obrazlılığının aydın şəkildə ifadəsidir.

"Vals-skertso"nun xarakteri əsərin tempini müəyyən edir. Belə ki, əsər "Allegretto leggiero" tempində və 6/8 ölçüdə yazılmışdır. Əsərin "Vals-skertso" adlanması onu sanki janr müxtəlifliyi baxımından iki hissəyə bölür və bu da öz növbəsində, əsərin bədii obrazlılığının yaranmasına öz təsirini göstərir.

"Vals-skertso" sadə üçhissəli formada yazılaraq, dinamik inkişafa və musiqi materialının fəal inkişafına əsaslanır. Fortepianonun ifasında doqquz xanədən ibarət olan giriş mövzusu violin partiyasının fasiləsiz inkişafı ehtiva edən çıxışını hazırlayır. Girişdə fortepianonun coşğun və təntənəli ruhu əsərin obraz-emosional məzmunu haqqında təsəvvürü formalaşdırır. Violin partiyasının onaltılıqlarının sürətli və davamlı hərəkəti üzərində qurulan melodiyası fortepianonun eyni ritmik fiqurasiyalar üzərində qurulan musiqi materialı ilə davam etdirilir. Bəstəkar violin partiyasının harmonik baxımdan zənginləşməsini fortepianoya həvalə edərək, əsas diqqəti violin alətinin ifaçılıq xüsusiyyətlərinin ifadə olunmasına yönəltmişdir. Bu baxımdan violin partiyası ifaçı qarşısında geniş imkanları yaradır. Belə ki, burada violin ifaçısının həm texniki imkanlarının üzə çıxarılması üçün geniş imkanlar yaradılır, həm də onun bədii obrazlılığı duyaraq, şən və təntənəli şəkildə ifadə etməsinə təsir göstərilir.

Üçhissəli formanın birinci hissəsi vals janrının xüsusiyyətləri sıx bağlı olub, incə melodikliyi və rəngarəng çalarlığı özündə birləşdirir. Belə ki, burada diqqəti cəlb edən xüsusiyyət vals janrına xas olan ritmik xüsusiyyətlərin fortepiano alətində saxlanılmasıdır. Bəstəkar burada hər iki alət arasında qarşılıqlı münasibətləri yaradır. Burada fortepianonun əsas funksiyası ritmik fonun saxlanılmasına, violin isə həm melodik, həm də janra xas olan rəqsvariliyin ifadə edilməsinə yönəldilmişdir. Buna görə də üçhissəli silsilənin birinci hissəsi getdikcə güclənən təntənəli ruhun coşğunluqla verilməsi müşahidə olunmağa başlayır və bəstəkar, bir növ, hər iki janra xas əlamətləri

burada ifadə edir. M.Mirzəyevin yanaşmasına görə, üçhissəli formanın digər bölmələri başlanğıc motivin işlənmələrinə əsaslanaraq, əsər boyu motiv işlənməsini təəssüratını yaradır.

Nümunə 3. M.Mirzəyev "Vals-skertso"




"Vals-skertso"nun "Meno mosso"da başlayan orta hissəsi isə əsasən, skertso janrında xas xüsusiyyətləri özündə birləşdirir. Ölçü dəyişkənliyinin davamlı şəkildə baş verməsi orta hissənin səciyyəvi əlamətlərindən biri kimi dəyərləndirilə bilər. Lakin əsərin janr yönümündən irəli gələrək, skertso əlamətləri davamlı şəkildə keçir və yenidən vals janrının xüsusiyyətləri özünü göstərir. Orta hissə əsərin kulminasiya funksiyasını yerinə yetirdiyinə görə, dramatiklik və təntənəli obrazlılığın daha qabarıq ifadə olunması burada özünü göstərir. Hərəkət dinamikası yalnız violin partiyasında deyil, eyni zamanda fortepiano müşayiətində də özünü göstərir. Bu hissədə violin ifaçısının texniki bacarıqlarından mükəmməl şəkildə istifadə olunması xüsusilə diqqətəlayiqdir. Orta hissənin son xanələrində hərəkətin dinamikası daha da güclənir və hər iki alət unison şəkildə eyni musiqi materialını ifa etməyə başlayır. Üçhissəli formanın üçüncü hissəsi "A tempo" birinci hissənin musiqi materialına əsaslansa da, burada dəyişiklik və müəyyən elementlərin saxlanılması özünü göstərir. Bəstəkar əsərin tamlığını və hissələr arasında bağlılığın yaradılması məqsədilə melodik motivin intonasiya işlənməsinə üstünlük verərək, əsərin bədii obrazlılığını aydın şəkildə göstərməyə nail olmuşdur. Melodik musiqi materialının işlənməsinə diqqətlə yanaşan bəstəkar məhz bu səbəbdən əsərin repriza bölməsində yığcamlıqdan uzaq olmuş və əsərin təntənəli ruhunun aydın şəkildə ifadəsinə xüsusi bir diqqətlə yanaşmışdır.

**Nəticə**

Beləliklə, kamera-instrumental yaradıcılığı Azərbaycan musiqi mədəniyyətində özünəməxsus bir mərhələ təşkil edən M.Mirzəyevin "Adajio" və "Vals-skertso" əsərləri violin ifaçılarının ifaçılıq bacarıqlarını, xüsusilə texniki imkanlarını və bədii obrazlılığı dərindən hiss edərək duymasını həssaslıqla özündə ehtiva edən əsərlər kimi dəyərlidir. Violin ifaçısının ifaçılıq xüsusiyyətlərinin dərindən açılması baxımından yanaşdıqda, hər iki əsər ifaçılıq üsullarının məqsədyönlü şəkildə təcəssüm olunmasının parlaq nümunələri kimi əhəmiyyətlidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan musiqi tarixi [5 cilddə] / tərt. ed. Z.Səfərova – Bakı: Elm, – c. 4. – 2019. – 823 s.
2. Azərbaycan musiqi tarixi [5 cilddə] / tərt. ed. Z.Səfərova – Bakı: Elm, – c. 5. – 2020. – 669 s.
3. Həsənova, L.V. Azərbaycan bəstəkarlarının skripka üçün əsərlərində üslub xüsusiyyətləri və interpretasiya məsələləri (1970-1990-cı illər): / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2002. – 26 s.
4. Həsənova, Ş.H. Musa Mirzəyev / Ş.H.Həsənova. – Bakı: Apostrof, – 2008. – 178 s.
5. Мирзоев, М. Адажио и Вальс-скерцо. Для скрипки и фортепиано. – Баку: Азернэшр. – 17 с.

***Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının***
***"Simli alətlər" kafedrasının müəllimi***
***E-mail:asadovanigar@yahoo.com***

**Nigar Asadova**

**CHARACTERISTICS OF MUSA MIRZAYEV'S WORKS "ADAGIO" AND "WALTZ-SCHERZO" FOR VIOLIN AND PIANO**

The presented article analyzes the features of the works of Musa Mirzayev, a prominent representative of the Azerbaijani composition school, People's Artist, from a theoretical point of view and clarifies the performance characteristics. The main purpose of the article is to highlight the richness of the melodic language of these works, which still occupy a central place in the creativity of violinists in modern times, and to show the diversity of performance methods. In this regard, the scientific novelty of the article is the detailed analysis of Musa Mirzayev's works "Adagio" and "Waltz-scherzo" and the identification of their characteristic features.

**Keywords:** *Musa Mirzayev, composer, violin, piano, performance characteristics, genre*

**Нигар Асадова**

**ОСОБЕННОСТИ ПРОИЗВЕДЕНИЙ МУСЫ МИРЗОЕВА «АДАЖИО» И «ВАЛЬС-СКЕРЦО» ДЛЯ СКРИПКИ И ФОРТЕПИАНО**

В представленной статье анализируются особенности произведений Мусы Мирзоева, выдающегося представителя азербайджанской композиторской школы, народного артиста и с теоретической точки зрения уточняются исполнительские особенности. Основная цель статьи — осветить богатство мелодического языка этих произведений, занимающих особенное место в творчестве скрипачей современной эпохи, и показать многообразие исполнительских приемов. С этой точки зрения научная новизна статьи заключается в детальном анализе произведений Мусы Мирзоева «Адажио» и «Вальс-скерцо» и выявлении их характерных особенностей.

**Ключевые слова***: Муса Мирзоев, композитор, скрипка, фортепиано, исполнительские особенности, жанр*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 16.07.2025**
**Son daxilolma tarixi:02.08.2025**